**Elçin İsmayılov** [28]

# QƏRBİ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ DEMOGRAFİK VƏ ETNOQRAFİK DƏYİŞİKLİKLƏR VƏ ONLARIN TOPONİMLƏRDƏ ƏKSİ

**Giriş.** Son iki yüz il ərzində erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüz siyasətləri Azərbaycan tarixinin ən qanlı dövrlərini təşkil edir. Bu dövrlər mənəvi, mədəni və sosial baxımdan ciddi izlər buraxmış, xalqımızın əsrlər boyu yetişdirdiyi dəyərləri, mədəni irsi və tarixi mirası hədəf almışdır. Erməni millətçilərinin həyata keçirdiyi bu təcavüzkar siyasətlərin əsas məqsədi Azərbaycan xalqını öz doğma torpaqlarından sürgün edərək, həmin ərazilərdə "Böyük Ermənistan" adlı dövlətlərini qurmaq olub. Bu məqsədlə bir tərəfdən Azərbaycan ərazilərindəki türk-müsəlman əhalisini qətlə yetirərək, digər tərəfdən həmin ərazilərdəki tarixi və mədəni izləri məhv etməyə çalışıblar. Bu millətçi və şovinist yanaşmalar təkcə etnik təmizləmə ilə kifayətlənməyib, eyni zamanda Azərbaycan xalqının milli kimliyini, tarixi abidələrini və mədəniyyətini təhrif etməyə, onun zəngin tarixi irsini və coğrafiyasını silməyə cəhd edib.

Ermənilərin tarix boyu həyata keçirdikləri siyasətin əsasını "Böyük Ermənistan" kimi əsassız ideyanı gerçəkləşdirmək təşkil etmişdir. XVII əsrin əvvəllərindən başlayaraq bu məqsəd uğrunda aparılan fəaliyyətlər geniş vüsət almış və intensivləşmişdir. Ermənilər çar Rusiyasının dəstəyindən faydalanaraq, mövcud imkanlardan maksimum dərəcədə yararlanmağa başlamışlar. Çar Rusiyası Qafqazdakı strateji mövqeyini möhkəmləndirmək və bu regionda öz təsirini artırmaq məqsədilə ermənilərin "Böyük Ermənistan" dövlətini qurmaq arzularının reallaşmasına dəstək verərək Qafqazda və ümumiyyətlə regionda güclü siyasi təlatümlərə səbəb oldu.

**Əsas hissə.** Tarixi mənbələrə baxdıqda, Türk xalqlarının Qafqazda mövcudluğunun çox qədim dövrlərə, miladdan əvvəlki minilliklərə qədər uzandığı məlum olur. Qafqaz regionunda türklərin varlığı hələ Kimmer və Skif xalqlarının bu ərazilərdə yaşadığı zamanlara gedib çıxır. Bu da onu göstərir ki, Qafqazın qədim tarixində Türk mədəniyyətinin və dilinin güclü izləri mövcuddur. Ərəb, fars, türk, gürcü və hətta erməni mənbələri araşdırıldıqda, türklərin Qafqazdakı varlığının miladdan üç min il əvvələ qədər uzandığı məlum olur. Bu, bir çox tarix kitablar, tarixnamələr və qədim daşlardakı rəsmlərlə sübut edilir. Gürcü tarixçisi Leonti Mroveli miladdan əvvəlki dövrlərə aid tarix kitablarında da türklərin Qafqazda mövcudluğunu təsdiq edən dəlillərin tapıldığını öz əsərlərində qeyd edir. O, e.ə. IV əsrə aid bir kitabda yazılanları belə ifadə edir: *"Buntürklər yəni Turanlılar fars hökmdarı Keyxosrovu öz sərhədlərindən qovub çıxarmaq məqsədilə, Xəzər dənizindən Kura çayı boyunca yuxarı doğru hərəkət edərək Mtsxetaya 28.000 ailə ilə gəldilər. Mtsxetada Mamasahli və bütün Kartveller, yəni gürcülər, farslara qarşı mübarizədə onlara dəstək verəcəklərinə dair vədlər verdilər və Buntürkler Mtsxetanın qərbindəki ərazilərə yerləşdirildilər"* [5, s. 35].

Rusların Cənubi Qafqaza yürüşü İrəvan xanlığının taleyini tamamilə dəyişdirdi. İrəvan xanlığı dövrlərində şəhərdə erməni əhalisi mövcud deyildi. Qala daxilindəki 40-dan çox dükanın yalnız 11-nin ermənilərə məxsus olduğu və bu dükanların sahiblərinin Üçmüəzzin kəndindən gəlib, gündüz saatlarında işlədib, axşam yenidən kəndlərinə qayıtdığı məlumdur. Lakin II. Qacar-Rus müharibəsi dövründə xarici ölkələrdən, xüsusilə Qacarlar İmperiyası, Osmanlı İmperiyası və Rusiyadan ermənilər gətirilərək Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə yerləşdirilirdi. Məsələn, yalnız Qacar hökmdarları dövründə, xüsusilə II. Qacar-Rus müharibəsindən əvvəl və müharibə dövründə baş verən köçürmələr nəticəsində 1825-1826-cı illərdə 18.000 nəfər erməni həmin torpaqlara yerləşdirilib. Rusiyanın bütün bu köçürmə təşəbbüslərinə və yerli əhalinin yerləşdirilməsi üçün etdiyi cəhdlərə baxmayaraq, İrəvan xanlığı işğal edildikdə ermənilər hələ də ümumi əhalinin yalnız 24%-ni təşkil edirdilər [4, s. 271].

1828-ci ildən etibarən Rusiya artıq öz tarixi məqsədlərini həyata keçirməyə çox yaxınlaşmışdı. Çünki bu dövrə qədər bütün əsas ərazilər Rusların nəzarəti altına alınmışdı və artıq hər şey onların əlində idi. 1828-ci ilin martın 21-də Novruz Bayramı günü Çar I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının torpaqlarında yeni bir idarəetmə qurumu, Müvəqqəti İrəvan İdarəsi yaradıldı. Bu idarəetmənin strukturu və rəhbərləri isə yeni bir ərazi vahidi olan Erməni Vilayətinin əsasını qoydu. Bu vilayət birbaşa Tiflisdəki Rusiya baş komandanına tabe edildi. Beləliklə, tarixdə heç vaxt müstəqil bir dövlət qurmaq imkanına sahib olmayan, digər dövlətlərin vilayəti olmaqla kifayətlənən ermənilər rusların sayəsində öz dövlətlərini qurmaq qurmaq fürsətini tapdılar. Erməni Vilayəti, İrəvan və Naxçıvan əyalətləri ilə Ordubad Dairəsindən ibarət idi. İrəvan əyaləti, xanlıq dövründə olduğu kimi, 15 mahaldan ibarət idi. Naxçıvan əyaləti isə 5 mahaldan və Ordubad Dairəsi də yenə 5 mahaldan təşkil olunurdu. Bu vilayətin idarə edilməsi Gürcüstanın knyazı, general A.G. Çavçavadzeyə həvalə edilmişdi. Bu tədbir regionun idarəçiliyini tamamilə Rusiyanın əlində cəmləşdirdi və ermənilərin müstəqillik əldə etməsi üçün son bir addım oldu [6, s. 59].

Ermənilərin Türkiyədənnvə İrandan İrəvan xanlığının ərazisinə köçürülməsi bu ərazinin demoqrafik strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuş və bu dəyişikliklər, eyni zamanda siyasi baxımdan da mühüm təsir yaratmışdır. N.Şavrovun bu məsələyə dair fikirləri və etirafları xüsusilə maraq doğurur. O, Zaqafqaziyada, xüsusilə indiki Ermənistanın ərazisində çarizm dövründə Rusiyanın erməniləri müstəmləkəçilik siyasətində necə ustalıqla istifadə etdiyini təsvir edərək yazır: *"Biz müstəmləkəçilik siyasətinə Zaqafqaziyada rus əhalisi deyil, bizə yad olan xalqların yerləşdirilməsi ilə başladıq... 1828-ci ildən 1830-cu ilə qədər, yəni müharibədən sonra iki il ərzində, biz Zaqafqaziyaya İrandan 40 mindən çox, Türkiyədən isə 84 mindən çox erməni köçürmüş və onları Yelizavetpol və*

---

[28] AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent

*İrəvan quberniyalarının ən zəngin torpaqlarında yerləşdirmişik. Yerləşdirmək üçün onlara 200 min desyatindən çox dövlətə aid torpaq verilmiş və müsəlmanlardan 2 milyon manatlıq torpaq alınaraq ermənilərə satılmışdır. Yelizavetpol quberniyasının dağlıq əraziləri və Göyçə gölü sahilləri həmin ermənilər tərəfindən məskunlaşdırıldı. Qeyri-rəsmi köçürülənlər də daxil olmaqla, köçənlərin ümumi sayı 200 mini keçmişdir" [Шавров, s. 59-61]. N. Şavrovun özünün etiraf etdiyi kimi "XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan 1 milyon 300 min ermənінin 1 milyonu ərazinin yerli sakinləri olmayıb, onlar bizim tərəfimizdən (Rusiya dövləti tərəfindən - İ.B.) bura yerləşdirilmişdir"* [9, s. 61]. Bu etiraflar Zaqafqaziyada ermənilərin yerləşdirilməsi ilə bağlı tarixi faktı açıqlayır. Şavrovun dediyi kimi XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan ermənilərin böyük əksəriyyəti (1 milyon 300 min ermənidən 1 milyonu) yerli sakinlər deyildi, əksinə, Rusiya dövləti tərəfindən həmin əraziyə yerləşdirilmişdilər. Bu, ermənilərin Qafqaz regionunda artan sayını izah edən bir faktdır və regiondakı etnik və siyasi dəyişikliklərin tarixi baxımından mühüm bir məqamdır. Şavrovun bu etirafları o dövrdəki Rusiyanın siyasətini, xüsusilə etnik münaqişələr və cəmiyyətin tərkibini dəyişdirmək məqsədilə həyata keçirdiyi köçürmə siyasətini əks etdirir. Bu ifadələr Rusiya imperiyasının Zaqafqaziyada ermənilərin yerləşdirilməsinə necə strateji yanaşdığını və bu prosesin bölgənin demoqrafik və siyasi strukturuna necə təsir etdiyini aydın şəkildə nümayiş etdirir.

Azərbaycanlıların öz torpaqlarından zorla köç etdirilməsi və xaricdən gələn ermənilərin həmin torpaqlara yerləşdirilməsi məqsədini daşımamış, əksinə, Daşnakların arzusu olan monoetnik Ermənistan dövləti qurmaq siyasətinin nəticəsi olmuşdur. Lakin 1948-1953-cü illərdə bunu tam olaraq reallaşdıra bilməmişlər. 50-ci illərin əvvəllərində öz məqsədlərinə çata bilməyən ermənilər həmin illərin sonunda fəaliyyətlərini sürətləndirmişlər. Bu mərhələnin xarakterik xüsusiyyəti üzdə "beynəlxalqçılıq" və "xalq dostluğu" şüarlarını irəli sürərək, azərbaycanlıların Ermənistanda yaşama və inkişaf imkanlarının gizli şəkildə məhdudlaşdırılmasıdır. İntellektual qüvvələrə və aydınlara qarşı tətbiq olunan mənəvi terror ilk olaraq ölkədə o dövrə qədər mövcud olan ali məktəblərin, texniki məktəblərin və mətbuat orqanlarının topluca ləğv edilməsi ilə açıq şəkildə özünü göstərmişdir. 30-cu illərdə H. Abovyan adına Yerevan Pedaqoji İnstitutunun dörd fakültəsindən (Azərbaycan dili və ədəbiyyatı, tarix, coğrafiya, fizika və riyaziyyat) ibarət olan Azərbaycan bölməsinin tam zamanlı və yarımçıq təhsil verən şöbələri ləğv edilmişdir. Bunun əvəzinə 1955-ci ildə 25 nəfərlik azərbaycanlı qrup yaradılmışdır. Ermənistanda müəllim kadrlarının hazırlanmasında mühüm rol oynayan, 1925-ci ildə təşkil edilmiş Yerevan Azərbaycan Pedaqoji Texniki Məktəbi buna böyük ehtiyac olmasına baxmayaraq ləğv edilərək, Azərbaycan SSR-in Xanlar rayonuna köçürülmüşdür [7, s. 121].

Səməd Ağaoğlu yazır ki: *"1948-ci ildə Mikoyanın təşəbbüsü və Stalinin əmri ilə 40.000 türk Ermənistandan çıxarılaraq, Azərbaycanın Kür çayı sahillərinə yerləşdirilmiş, onlara heç bir yardım edilməmiş və əksəriyyəti həlak olmuşdur"* [1, s. 18].

60-cı illərdə azərbaycanlılar yenidən tarixin sınağına çəkilməyə başlamışdır. Erməni daşnaqlarının "dənizdən dənizə böyük Ermənistan" kimi sərsəm məqsədi heç zaman sönmək bilməmişdir. Lakin bu dövrdə Tanrı Azərbaycan xalqına kömək etmiş və davamlı mübarizələrdən alnıaçıq, üzüağ çıxan həmin dövrün erməniməns̩əli rəhbərlərinə qarşı ağlı, siyasi çevikliyi və zəkası ilə mübarizə apara biləcək böyük şəxsiyyət Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlmişdir. 1969-cu ildə Heydər Əliyevin Azərbaycan SSR-nin rəhbərliyinə keçməsi erməni daşnaqlarının Azərbaycan xalqına qarşı həyata keçirməyi planlaşdırdıqları layihələri alt-üst etmişdir [7, s. 88]. Heydər Əliyevin uzaqgörənliyi sayəsində azərbaycanlılar üçün həmişə təhlükəli olan belə bir qurum ifşa edilərək, SSRİ-nin qabaqcıl rəhbərlərini "dostluq", "beynəlxalqçılıq" pərdəsi altında Azərbaycan xalqına qarşı həyata keçirdikləri çirkin niyyətlərdən imtina etməyə çağırmışdır. Əlbəttə ki, bu, rəhbərlikdə təmsil olunan ermənipərəst Qorbaçov və tərəfdarları tərəfindən müsbət qarşılanmırdı. 1985-ci ildə xarici ölkələrdə fəaliyyət göstərən erməni lobbilərinin dəstəyi ilə SSRİ rəhbərliyinə gələn Qorbaçov "yenidənqurma" pərdəsi altında Sovet İttifaqı daxilində etnik problemlər yaratmaq məqsədilə onun maraqlarına cavab verməyən insanları sıxışdırmağa başlamışdır. Bu siyasətin pərdə arxasında etnik gərginlikləri artırmaq və bunun nəticəsində Azərbaycanlıların zorakılığa məruz qalması məqsədi güdülürdü. Qorbaçovun bu siyasətinə qarşı çıxan və Qarabağ məsələsində Azərbaycana dəstək verən yeganə şəxs Heydər Əliyev idi. Heydər Əliyev Qorbaçovun ermənilərin təsiri altında azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə siyasətini qəbul etməyərək buna qarşı mübarizə aparmış və bu mübarizə nəticəsində güclü təzyiqlərlə üzləşmişdir.

1988-1989-cu illərdə Ermənistandan 250 minə yaxın azərbaycanlının deportasiyası həyata keçirildi. Bu, tarixən Azərbaycan torpaqları olan ərazilərdə monoetnik erməni dövlətinin yaranmasına zəmin hazırladı. Həmin dövrün ardından Ermənistanın qanunverici orqanları tərəfindən qəbul edilən qərarlara əsasən azərbaycanlılara məxsus yaşayış məntəqələrinin, çayların, göllərin və təpələrin adları dəyişdirilərək, bu ərazilərin tarixi və mədəni irsi silindi və erməniləşdirildi. Bu proses yalnız coğrafi adların dəyişdirilməsi ilə kifayətlənmədi, həmçinin bu torpaqlarda formalaşan mədəniyyətin, keçmişin və milli kimliyin sistematik şəkildə yox olmasına səbəb oldu. Nəticədə bölgənin azərbaycanlı irsi və mədəni izləri tamamilə məhv olundu və ərazi erməni dövlətinin və mədəniyyətinin təsiri altına alındı.

Qərbi Azərbaycan bölgəsindəki maddi mədəniyyət nümunələri azərbaycanlıların bu ərazinin qədim və köklü sakinləri olduğunu əyani şəkildə sübut edir: *"Bunu həmin ərazidəki saysız-hesabsız yeraltı və yerüstü maddi mədəniyyət nümunələri - qədim yaşayış məskənləri, nekropollar, kurqanlar, qala, saray və istehkam qalıqları karvansaralar, körpülər, qəbirüstü sənduqələr,* xaçdaşlar, at-qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqlar da təsdiq edir" [3, s. 9].

XX əsrdə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın mərhələlərlə həyata keçirilmiş deportasiyası, eyni zamanda xalqımızın mədəni irsinin sistematik şəkildə məhv edilməsi və ya mənimsənilməsi prosesi ilə bərabər aparılmışdır. Bu proses nəticəsində bölgədəki tarixi abidələrimiz ya Ermənistanın hakimiyyət orqanları tərəfindən zorla ələ keçirilmiş, ya da dağıdılmışdır. Beləliklə, Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların etnik və mədəni nişanələri mədəni soyqırımına məruz qalmışdır.

"Azərbaycan xalqının mənşəyinin formalaşmasının, eləcə də Qərbi Azərbaycanın türkmənşəli toponimlərinin hərtərəfli öyrənilməsində ərazinin tarixi abidələri qaranlıq məsələlərə bir aydınlıq gətirir. İndiki Ermənistanın Sisyan rayonunun Urud kəndində dövrümüzə qədər qalan iki orta əsr xatirə abidəsi bu baxımdan xüsusilə maraqlıdır. Sənduqə formalı birinci qəbir daşının üzərində ərəb dilində yazı həkk olunmuşdur. Yazının tərcüməsi belədir: Allah, Məhəmməd, Əli Üğvan (ağvan) nəslindən olan kəndxuda oğlu Əmrusəl, ramazan ayı, 883-cü il (miladi tarixi ilə 26.11-25, 12.1478-ci il)" [2, s. 265]. Mühüm faktı vurğulamaq istərdik ki, XIX əsrdə İrəvan quberniyasında 310 məscid mövcud olmuşdur. İrəvan quberniyasının müxtəlif qəzalarına aid olan məscidlər yerləşirdi ki, bu məscidlərin əksəriyyəti müasir dövrə qədər salamat qalmamış, ermənilər tərəfindən sistematik şəkildə dağıdılmış və məhv edilmişdir. Bu yalnız binaların yox olmasından ibarət deyil, eyni zamanda həmin məscidlərin tarixən bu torpaqlarda mövcud olan dini və mədəniyyət həyatının izlərini də tamamilə silmişdir. Ermənilərin bu dağıntıları həmin ərazilərdəki azərbaycanlılara məxsus tarixi irsin toplanması və gələcək nəsillərə çatdırılmasını məqsədli şəkildə məhv etməyə yönəlmiş bir aktdır. Bu məscidlərin dağıdılması isə sadəcə bir infrastrukturun yox olmasından çox bir xalqın mədəniyyətinə və tarixinə qarşı qəsdən həyata keçirilmiş bir hücumdur.

**Nəticə.** Erməni şovinistlərinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi siyasət, əsasən etnik təmizləmə və soyqırımı məqsədini güdür. Bu siyasət ermənilərin Azərbaycan xalqını öz doğma torpaqlarından zorla çıxarmağa, həmin əraziləri öz mülkiyyətinə keçirməyə və "Böyük Ermənistan" kimi əsassız xülyalarını gerçəkləşdirməyə yönəlmişdir. Son iki yüz il ərzində ermənilərin apardığı bu təcavüzkar və şovinist fəaliyyətlər, xüsusən 20-ci əsrin əvvəllərində və Sovet dövründə kütləvi etnik təmizləmə əməliyyatları ilə müşayiət edilmişdir. Bu etnik təmizləmə yalnız insanların öldürülməsi və el-obalarından sürgün edilməsi ilə məhdudlaşmamış, eyni zamanda Azərbaycan xalqının mədəni və tarixi irsinin, dini abidələrinin və milli kimliyinin silinməsi məqsədini daşıyan bir təxribat xarakteri daşımışdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Ağaoğlu, S. Sovyet Rusya Imparatorluğu. Istanbul. 1967. s. 18
2. Bayramov, İ. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti // İ.Bayramov. Bakı. 2011, 288 s.
3. Ələkbərli, Ə. Qərbi Azərbaycan abidələri. Bakı: Nurlan, 2007, 272 s.
4. Göktuğ, M. Ermenistan'ın Temelini Oluşturan Yapay Ermeni Vilayeti'nin Kurulmasının Tarihi Seyri. Selçuklu Araştırmaları Dergisi 18 (Haziran 2023), 263-284
5. Leonti Miroveli, Kartlis Tshovreba (Gürcü Tarihi), Tiflis 1955, 355 s.
6. Mirzəzadə, A. XIX əsrin 20-30-cu illərində Çar Rusiyası terefinden Ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi və bölgədə "Ermeni Amili"nin yaranması. Tarix və onun problemləri C. 4, s. 59. Bakı: Bakı Dövlət Universiteti Nəşr, 2014.
7. Mustafayev, Ş. "XVIII.-XX. Yüzyıllarda Tarihi Azerbaycan Toprağı - İrevan Hanlığı'nın Arazisine Ermenilerin Göç Ettirilme Politikası". Atatürk Araştırma Merkezi Dergisi 31, sy. 91 (Mayıs 2015): 93-130.
8. Mustafayev, Ş. "XVIII.-XX. Yüzyıllarda Tarihi Azerbaycan Toprağı - İrevan Hanlığı'nın Arazisine Ermenilerin Göç Ettirilme Politikası". Atatürk Araştırma Merkezi Dergisi 31, sy. 91 (Mayıs 2015): 93-130.
9. Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье, СПб, 1911, 156 с.



**Açar sözlər:** Etnik təmizləmə, erməni şovinizmi, soyqırımı, Azərbaycan mədəni irsi, tarixi abidələr
**Key words:** Ethnic cleansing, Armenian chauvinism, genocide, Azerbaijani cultural heritage, historical monuments.
**Ключевые слова:** этническая чистка, армянский шовинизм, геноцид, азербайджанское культурное наследие, исторические памятники.



**Xülasə**

Məqalə son iki yüz ildə erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüz siyasətlərini detallı şəkildə araşdırır. Ermənistanın "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə həyata keçirilən bu təcavüzkar siyasət Azərbaycanın yerli türk-müsəlman əhalisinin qətlə yetirilməsi və bu ərazilərdəki tarixi və mədəni izlərin məhv edilməsini əhatə edir. Hədəf Azərbaycan xalqını öz torpaqlarından sürgün edərək, həmin ərazilərdə ermənilərin monoetnik dövlət yaratmasına imkan verməkdir olub. Məqalədə göstərilir ki, ermənilərin bu siyasəti yalnız etnik təmizləmə ilə məhdudlaşmamış, eyni zamanda Azərbaycan xalqının milli kimliyini, tarixi abidələrini və mədəniyyətini təhrif etməyə yönəlmişdir. Həmçinin "Böyük Ermənistan" ideyasının əsassız və destruktiv bir təməldə durduğu vurğulanır. Ermənilərin bu ideyanı həyata keçirmək üçün XIX əsrin sonlarından etibarən çar Rusiyasının dəstəyindən istifadə etməsi Qafqazdakı güc balansını dəyişərək regionda genişmiqyaslı siyasi və sosial təlatümlərə səbəb olmuşdur.


## DEMOGRAPHIC AND ETHNOGRAPHIC CHANGES IN THE WESTERN AZERBAIJAN TERRITORIES AND THEIR REFLECTION IN TOPONYMS


**Summary**

The article thoroughly examines the ethnic cleansing, genocide, and aggression policies carried out by Armenian nationalists against the Azerbaijani people over the past two hundred years. This aggressive policy, aimed at realizing the idea of "Greater Armenia," involved the mass killing of the local Turkic-Muslim population of

Azerbaijan and the destruction of historical and cultural traces in these territories. The goal was to expel the Azerbaijani people from their lands and allow Armenians to establish a mono-ethnic state in these areas. The article highlights that Armenian policies were not limited to ethnic cleansing but also aimed to distort the national identity, historical monuments, and culture of the Azerbaijani people. Furthermore, the idea of "Greater Armenia" is emphasized as baseless and destructive. The support of Tsarist Russia, which the Armenians utilized since the late 19th century to implement this idea, shifted the power balance in the Caucasus, leading to large-scale political and social upheavals in the region.

## ДЕМОГРАФИЧЕСКИЕ И ЭТНОГРАФИЧЕСКИЕ ИЗМЕНЕНИЯ НА ТЕРРИТОРИИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА И ИХ ОТРАЖЕНИЕ В ТОПОНИМИИ

**Резюме**

Статья подробно рассматривает политику этнической чистки, геноцида и агрессии, проводимую армянскими националистами против азербайджанского народа в последние два столетия. Эта агрессивная политика, направленная на реализацию идеи "Великой Армении", охватывает массовое уничтожение местного тюркско-мусульманского населения Азербайджана и разрушение исторических и культурных следов на этих территориях. Целью было изгнание азербайджанского народа с его земель и создание моноэтнического государства армянами на этих территориях. В статье показано, что политика армян не ограничивалась только этнической чисткой, но также была направлена на искажение национальной идентичности, исторических памятников и культуры азербайджанского народа. Также подчеркивается, что идея "Великой Армении" основана на ложных и разрушительных принципах. Использование армянами поддержки царской России с конца XIX века для реализации этой идеи изменило баланс сил в Кавказе и привело к широкомасштабным политическим и социальным потрясениям в регионе.

**RƏYÇİ: dos. L.Ələkbərova**